İPƏK YOLU, No.4, 2023, səh.177-183
DOI: 10.30546/1810-911X.2023.4.177

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ YELİZAVETPOL (GƏNCƏ) QUBERNİYASININ ƏHALİSİ

**Rəna Əsədova**

AMEA Tarix İnstitutu, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: rena-beyler@gmail.com

**Xülasə**. Məqalədə Birinci dünya müharibəsi dövründə Yelizavetpol (Gəncə) quberniyasında həm əhalinin sayında, həm də etnik tərkibində baş verən ciddi dəyişikliklər araşdırılır, bu dəyişikliklərin səbəbləri və onların doğurduğu nəticələr təhlil edilir.

**Açar sözlər:** Yelizavetpol (Gəncə) quberniyası, demoqrafik dəyişikliklər, köçürülmə, deportasiya.

## THE POPULATION OF ELIZABETPOL (GANJA) PROVINCE DURING THE FIRST WORLD WAR

**Rena Asadova**
*ANAS Institute of History, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. The article examines serious changes in population and ethnic composition in Yelizavetpol (Ganja) province during the First World War, analyzes the reasons for these changes and their consequences.
**Keywords:** Elizavetpol (Ganja) province, national composition, demographic changes, resettlements, deportation.

## НАСЕЛЕНИЕ ЕЛИЗАВЕТПОЛЬСКОЙ (ГАНДЖИНСКОЙ) ГУБЕРНИИ ВО ВРЕМЯ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**Рена Асадова**
*Институт Истории НАНА, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье рассматриваются серьезные изменения в численности населения и в этническом составе Елизаветпольской (Гянджинской) губернии во время Первой мировой войны, анализируются причины этих изменений и их последствия.
**Ключевые слова:** Елизаветпольская (Ганджинская) губерния, национальный состав, демографические изменения, переселение, депортация.

## 1. Giriş

XIX əsrin 70-80-ci illərindən etibarən Şimali Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, yeni sənaye sahələrinin yaranması, ticarət əkinçiliyinin inkişafı sosial-iqtisadi həyata ciddi təsir göstərdi. Şimali Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Yelizavetpol (Gəncə) quberniyasında Bakı-Tiflis dəmir yolu çəkilməsindən sonra, dəmir yoluna yaxın ərazilərdə iqtisadi həyatın canlanması baş verdi. Dəmir yolu stansiyalarının tədricən sənaye ocaqlarına, ticarət mərkəzlərinə çevrilməsi, şəhərlərin böyüməsi, əmtəə-pul münasibətlərinin kəndə nüfuz etməsi prosesi sürətləndi. XX əsrin başlanğıcında bu proseslərin daha da intensivləşməsi fonunda həm ümumi əhali sayının artımının sürətlənməsi, həm də etnik tərkibdə digər xalqların nümayəndələrinin sayının artması baş verdi.

Doğrudur, bu göstəricilərə görə bəhs olunan dövrdə quberniya mərkəzi olan Gəncə şəhəri, Bakı şəhərindən geri qalırdı, lakin Yelizavetpol quberniyasının əhalisi Bakı

quberniyasından daha sürətlə çoxalırdı. XIX əsrin sonlarına doğru, o cümlədən də XX əsrin ilk onilliklərində Yelizavetpol quberniyası, xüsusən eyni adlı qəza çoxmillətli regiona çevrildi. Birinci dünya müharibəsi ərəfəsinə və dövrünə aid statistik toplulardakı [4-8] məlumatlar bunu aydın şəkildə göstərir.

“1915-ci il üçün Qafqaz təqvimi”ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1914-cü il yanvarın 1-nə olan məlumata görə Gəncə şəhərində, Yelizavetpol qəzası ilə birlikdə əhalinin etnik tərkibi çoxmillətli idi. Həmin vaxt Yelizavetpol qəzasında, Gəncə şəhəri ilə birlikdə 248015 nəfər yaşayırdı ki, onların 161802 nəfəri (65,2 faizi) müsəlman, yəni azərbaycanlı; 18740 nəfəri (7,6 faizi) rus; 58980 nəfəri (23,8 faizi) erməni; 6616 nəfəri (2,7 faizi) alman və polyak; qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [5, c.228-233].

“1916-ci il üçün Qafqaz təqvimi”ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1915-ci il yanvarın 1-nə olan məlumata görə Yelizavetpol qəzasında əhalinin etnik tərkibi çoxmillətli olaraq qalırdı. Həmin vaxt Yelizavetpol qəzasında (Gəncə şəhəri ilə birlikdə) 273216 nəfər yaşayırdı ki, onların 185940 nəfəri (68,1 faizi) müsəlman, yəni azərbaycanlı; 19256 nəfəri (7 faizi) rus; 61610 nəfəri (22,5 faizi) erməni; 4970 nəfəri (1,8 faizi) alman və polyak; qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [6, c.38-44].

1914-cü və 1915-ci illərin etno-demoqrafik göstəricilərinin müqayisəsi göstərir ki, Yelizavetpol qəzasında (Gəncə şəhəri ilə birlikdə) müharibənin birinci ilində azərbaycanlı əhalinin sayı 24 min, rusların sayı 0,5 min, ermənilərin sayı 1,5 min nəfər artmış; alman və polyakların sayı 2,5 min nəfərə qədər azalmışdı.

“1917-ci il üçün Qafqaz təqvimi”ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1916-cı il yanvarın 1-nə olan məlumata görə Yelizavetpol qəzasında əhalinin etnik tərkibi çoxmillətli olaraq qalırdı. Həmin vaxt Yelizavetpol qəzasında (Gəncə şəhəri ilə birlikdə) 272477 nəfər yaşayırdı ki, onların 177363 nəfəri (65,1 faizi) müsəlman, yəni azərbaycanlı; 18444 nəfəri (6,8 faizi) rus; 68719 nəfəri (25,2 faizi) erməni; 6412 nəfəri (2,4 faizi) alman və polyak; qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [7, c.190-193].

1915-ci və 1916-cı illərin etno-demoqrafik göstəricilərinin müqayisəsi göstərir ki, Yelizavetpol qəzasında (Gəncə şəhəri ilə birlikdə) müharibənin ikinci ilində azərbaycanlı əhalinin sayı 9 min, rusların sayı 1 min nəfər azalmış; ermənilərin sayı isə 7 min nəfər, alman və polyakların sayı 1,5 min nəfərə qədər artmışdı.

Rəqəmlərdən göründüyü kimi, Birinci Dünya müharibəsinin başlandığı 1914-cü il ərzində Yelizavetpol qəzasında əhalinin ümumi sayı 25201 nəfər artmışdı ki, bu artımın da 24138 nəfər azərbaycanlı əhalinin payına düşürdü. Faiz etibarı ilə də azərbaycanlıların sayı 1914-cü il ərzində 3 faizə qədər artmışdı. Lakin 1915-ci il ərzində Yelizavetpol qəzasında

əhalinin ümumi sayı 739 nəfər azalmışdı. Həmin il azərbaycanlı əhalinin sayı 8577 nəfər azalmış, əksinə erməni əhalinin sayı 7109 nəfər artmışdı. Əhalinin tərkibindəki bu ciddi dəyişikliyin səbəbi azərbaycanlı gənclərin cəbhəarxası işlərə səfərbərliyə alınması, Şərqi Anadoludan erməni qaçqınların kütləvi şəkildə Cənubi Qafqaza, o cümlədən Yelizavetpol qəzasına köçüb yerləşməsi idi.

Birinci Dünya müharibəsi ərəfəsi və dövründə bütövlükdə Yelizavetpol quberniyasında əhalinin sayında və etnik tərkibində önəmli dəyişikliklər baş vermişdi. “Qafqaz təqvimi”nin 1914, 1915, 1916 və 1917-ci illər üçün toplularının statistika bölmələrindəki məlumatlar əsasında tərtib edilmiş Cədvəl.1-də Birinci Dünya müharibəsi və dövründə Yelizavetpol quberniyasında əhalinin sayında və etnik tərkibində baş vermiş dəyişikliklər əks olunmuşdur.

**Cədvəl 1.**Yelizavetpol quberniyasında əhalinin sayı və etnik tərkibi

| İllər | Cəmi | O cümlədən | | | | |
|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlı | Erməni | Rus | Alman və Polyak | Digər |
| 1913 | 1240874 | 710248 | 452294 | 49649 | 6930 | 21753 |
| 1914 | 1165836 | 700387 | 396323 | 36647 | 7622 | 24857 |
| 1915 | 1243507 | 757123 | 421073 | 38423 | 6121 | 20767 |
| 1916 | 1275131 | 783065 | 418397 | 36782 | 7415 | 29472 |

Cədvəldən aydın olur ki, 1913-cü il yanvarın 1-nə olan məlumata görə, Yelizavetpol quberniyasında etno-demoqrafik vəziyyət faiz göstəricisi ilə ifadədə aşağıdakı kimi idi: əhalinin ümumi sayında azərbaycanlılar 57,2 faiz, ermənilər 36,4 faiz, ruslar 4 faiz, 6930 nəfəri alman, polyak və digər Avropa xalqlarının nümayəndələri 0,6 faiz təşkil edirdi. Yerdə qalan əhali isə gürcü, yəhudi, qaraçı, kürd və digərləri idilər [4, c.110-113; 8, c.345-346].

Bu çox böyük artım idi. Belə ki, 1885-ci ilə aid statistik məlumatlara görə, quberniyada 328946 nəfər kişi, 271516 nəfər qadın olmaqla, cəmisi 600662 nəfər əhali yaşamışdı [8, c.345]. Başqa sözlə, Birinci Dünya müharibəsi ərəfəsində 30 il əvvələ nisbətən, 1885-ci ildən keçən müddət ərzində Yelizavetpol quberniyası əhalisinin ümumi sayı 2 dəfədən çox artmışdı.

1913-cü il ərzində Yelizavetpol quberniyasında etno-demoqrafik vəziyyətdə müəyyən dəyişikliklər baş vermişdi. 1914-cü il yanvarın 1-nə olan məlumata görə, quberniya əhalisinin sayında əvvəlki 30 ildə ardıcıl davam etmiş artım dinamikası dayanmış, əks proses baş vermişdi. Cədvəl.1-dən göründüyü kimi 1913-cü il boyunca Yelizavetpol quberniyasında əhalinin sayı 75 min nəfər azalmışdı. Bu statistik göstəricilərdən aydın olur ki, Yelizavetpol quberniyasında 1914-cü ilin əvvəlində əhalinin əksəriyyəti– 60,1 faizi azərbaycanlılardan ibarət idi. Quberniya əhalisinin 34 faizini ermənilər; 3,1 faizini ruslar; 0,7 faizini alman və polyaklar təşkil edirdi.

1915-ci il yanvarın 1-nə olan məlumata görə, Yelizavetpol quberniyasında əhalinin sayı 2 il əvvəlki göstəriciyə yaxın olmuşdu. Həmin vaxt quberniya əhalisinin milli tərkibi aşağıdakı

kimi idi: azərbaycanlılar 61 faiz; ermənilər 33,8 faiz; ruslar 3,1 faiz; alman və polyaklar 0,5 faiz.

"1917-ci il üçün Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1916-cı il yanvarın 1-nə olan məlumata görə Yelizavetpol quberniyasında əhalinin sayında bir il ərzində 32 min nəfər artım olmuşdu ki, onun da 26 min nəfəri azərbaycanlı əhalinin payına düşürdü [7, c.194-197]. Yelizavetpol quberniyasında əhalinin etnik tərkibində aşğıdakı dəyişiklik baş vermişdi: həmin vaxt azərbaycanlı əhalinin sayı 61,4 faizə yüksəlmiş; ermənilər 32,8 faiz; ruslar 2,9 faiz; alman və polyaklar 0,6 faiz təşkil etmişdilər.

Cədvəl 1-dəki statistik göstəricilərdən aydın olur ki, Yelizavetpol quberniyasında 1913-cü ilə nisbətən 1916-ci ildə Birinci dünya müharibəsi ilə əlaqədar əhalinin sayında və etnik tərkibində əhəmiyyətli dəyişikliklər baş vermişdi. 1913-cü ildən 1916-cı ilə kimi əhalinin ümumi sayı 35 min nəfər çoxalmışdı ki, bu da azərbaycanlı əhalinin təbii artımı ilə birbaşa bağlı idi. Çünki həmin müddətdə erməni əhalisinin sayı 34 min nəfər; rus əhalisinin sayı 13 min nəfər azalmışdı.

Quberniyada yaşayan təriqətçi rus ailələri bu regiona, əsasən, XIX əsrin 30-cu illərindən etibarən köçürülməyə başlanmışdı. Bu rus ailələri başlıca olaraq Şuşa, Yelizavetpol və Cavanşir qəzalarında dağətəyi ərazilərdə məskunlaşdırılmışdılar. XX əsrin əvvəllərindən etibarən Cənubi Qafqaz dəmir yolunun quberniyadan keçən xətti boyunca da rusların məskunlaşması baş verirdi. Onların əsas məşğuliyyəti taxılçılıq, heyvandarlıq, bağçılıq və qismən də yükdaşıma idi [8, c.349].

Yelizavetpol quberniyasında yaşayan alman ailələri bu diyara 1817-1818-ci illərdə Almaniyanın Şvabiya bölgəsindən köçüb gəlmişdilər. Onların köçürülməsində Çar Hökuməti maraqlı olduğu üçün, alman məskunlara xüsusi imtiyazlar verilmiş, təsərrüfat yaratmaları üçün xeyli vəsait ayrılmışdı. Ona görə də, alman məskunları quberniyanın yerli azərbaycanlı əhalisindən də, rus ailələrindən də daha imkanlı idilər və daha yaxşı yaşayırdılar. İlk vaxtlar Yelenendorf (indiki Göygöl) və Annenfeld (indiki Şəmkir) koloniyaları salındı. Birinci dünya müharibəsi ərəfəsində alman koloniyalarının sayı 8-ə çatdı. Almanlar, əsasən, bağçılıq, üzümçülük və şərabçılıqla, həmçinin taxılçılıqla məşğul olurdular [8, c.349].

Təriqətçi olmayan, rəsmi sənədlərdə dini etiqadı pravoslav kimi qeyd edilən rus əhalisinin Cənubi Qafqaza, o cümlədən sonradan Yelizavetpol quberniyasına aid ediləcək ərazilərə köçürülməsi Qafqazın ilk canişini knyaz M. Vorontsovun (1844-1854-cü illər) dövründə sistemli şəkildə həyata keçirilməyə başlanmışdı. Lakin həmin dövrdə Qafqaz diyarında torpaq quruluşunun nizamlanmaması səbəbindən, həmçinin yerli azərbaycanlı əhalinin torpağa tələbatının ödənilməsini qaydaya salmadan, rus əhalisinin köçürülməsini təşkil etmək mümkün olmadı. Yalnız XX əsrin əvvəllərindən etibarən, Yelizavetpol quberniyasına rus əhalisinin köçürülməsi istiqamətində ciddi addımlar atıldı. Bu regiona rus ailələri Rusiyanın

Avropa hissəsindən, xüsusən də Poltava, Çerniqov, Xarkov quberniyalarından və Kuban vilayətindən köçürülüb yerləşdirildi [8, c.349].

Rusiya hakim dairələri XX əsrin əvvəllərində Muğanla yanaşı, Mil düzündə də çoxlu sayda yeni rus kəndləri salınmasını planlaşdırırdı. 1911-ci il mayın 29-da Çarın imzaladığı və Rusiya Dövlət Dumasının bəyəndiyi fərmana görə Muğan və Mil düzlərində süni suvarma sistemləri yaradılması və rus məskularının köçürülüb yerləşdirilməsi üçün 5175154 rubl vəsait ayrıldı. Bu fərmana uyğun olaraq 1918-ci ilə kimi Mil düzündə 4 suvarma kanalı çəkilməsi, 80 yeni qəsəbə salınması və 190 min nəfərdən çox rus əhalisini Mərkəzi Rusiyadan həmin qəsəbələrə köçürülməsi nəzərdə tutulurdu [1, s.185-186].

Hesablamalara görə, bu planların reallaşması nəticəsində Mil düzündə ildə orta hesabla 30 milyon puddan artıq pambıq istehsal ediləcəkdi. Ona görə də bu dövrdə Gəncədən Qarabağın içərilərindən keçməklə Mil, Muğan düzlərinə doğru Qarabağ dəmir yolu adlı xəttin çəkilməsi layihəsi irəli sürüldü. Layihə müəllifləri Muğan və Mil düzlərində suvarılacaq torpaqlarda əkinçiliyin, xüsusilə pambıqçılığın sürətli inkişafı və həmin ərazilərdə çoxlu sayda rus yaşayış məntəqələri yaratması perspektivini əsas götürərək Qarabağ dəmir yolunun böyük iqtisadi səmərə verəcəyinə ümid edirdilər. Lakin Birinci Dünya müharibəsinin başlanması rus əhalinin kütləvi şəkildə Mil düzünə köçürülməsi ilə bağlı rus hökumətinin planlarının üzərindən xətt çəkdi. Hakimiyyət nümayəndələri öncə bu planların təxirə salınmasına qərar verdi, daha sonra da ümumimperiya miqyasında böhranın dərinləşməsi ilə əlaqədar tamam imtina etdi. Həmçinin ailə başçısı orduya çağırılmış rus ailələrinin yaşayış şərtləri ağırlaşdığına görə yenidən öz gəldikləri yerlərə qayıtması baş verdi.

Şimali Azərbaycana, o cümlədən Gəncə, Qarabağ bölgələrinə erməni əhalisinin kütləvi yerləşməsi XIX əsrin 20-ci illərinin sonunda Qacarlar İranı və Osmanlı imperiyasından köçürülməsi hesabına baş vermiş, sonrakı dövrdə də davam etmişdi. XIX əsrin sonunda Osmanlı imperiyasının şərq vilayətlərində baş qaldıran erməni qiyamlarının yatırılması ilə əlaqədar ermənilərin Cənubi Qafqaza, o cümlədən Gəncə quberniyasına yeni kütləvi köçü baş verdi.

Çar Rusiyasının yeritdiyi milli müstəmləkəçilik siyasətinə görə, türk-müsəlman əhali etibarsız hesab edilir və döyüşən orduya xidmətə cəlb edilmirdi. Ona görə də, Birinci Dünya müharibəsi dövründə Bakı və Yelizavetpol quberniyalarından bütövlükdə 50 min nəfər rus, erməni və digər xristian gənc hərbi səfərbərliyə alınıb cəbhəyə göndərildi [3, s.86]. Lakin müharibə başlandıqdan az sonra cəbhələrdə ağır insan itkiləri Rusiya hakimiyyətini məcbur etdi ki, hərbi xidmətə çağırışla bağlı siyasətində qismən dəyişiklik etsin.

Çar II Nikolayın 25 iyun 1916-cı il tarixli fərmanı ilə Rusiya imperiyasında hazırkı müharibə müddətində hərbi mükəlləfiyyətdən azad edilən şəxslərin müsadirə qaydasında cəbhəarxası işlərə cəlb edilməsinə başlandı. Bu fərmana uyğun olaraq, imperiyada yaşayan və xristian olmayan "qeyri-xalqlar"ın 18-43 yaşında sağlam kişiləri cəbhəarxası işlər üçün səfərbərliyə alındı. Qafqaz canişinliyi tərəfindən bu fərmanın icrası gedişində 1916-cı il ərzində Şimali Azərbaycanın kənd əhalisinin əmək qabiliyyətli hissəsinin 30 faizi təsərrüfat işlərindən

zorla ayrıldı, istehkam və digər müdafiə xarakterli tikinti işlərinə, hərbi təyinatlı yüklərin daşınması, yüklənməsi və boşaldılmasına cəlb edildi [3, s.87].

Müharibənin son dövründə Yelizavetpol quberniyasında etnodemoqrafik vəziyyətə təsir göstərən amillərdən biri də bölgədə yaşayan alman məskunlarına qarşı ayrı-seçkilik tədbirləri idi. Rusiya Nazirlər Şurasının alman məskunlarına məxsus torpaqların, o cümlədən üzüm bağlarının müsadirə edilməsi haqqında 2 fevral 1915-ci il tarixli qərarı yüz il ərzində bu regionda yaşayan alman ailələrinin həyatına mənfi təsir göstərdi. Bu qərarın 1916-cı il dekabrın 13-də çar II Nikolay tərəfindən təsdiq edilməsi ilə yerli hakimiyyət orqanları hərəkətə keçdi, Yelizavetpol quberniyasının rəsmi mətbuat orqanında bu qərara əsasən 10 ay ərzində özgələşdirilməli olan Almaniya təbəələrinə və alman məskularına məxsus torpaqların siyahısı dərc edilməyə başlandı [9].

Elə həmin vaxtdan etibarən alman məskunların əmlakının müsadirəsi və özlərinin sürgün edilməsi prosesinə start verildi.  Alman məskunlarının müsadirə edilən əmlakı hərraca çıxarılanda həm yerli azərbaycanlı əhali, həm də XIX əsrin 30-cu illərində bu yerlərə köçürülmüş rus təriqətçi ailələri onları almaqdan imtina etdilər. Yalnız ermənilər özlərinə xas olan hərisliklə alman ailələrinin 100 ilə yaxın müddətdə yaratdığı evləri və üzüm bağlarını, digər əmlakı dəyər-dəyməzinə satın alıb, sürgün edilənlərin yurdlarına sahibləndilər.

1916-cı il yanvarın 1-nə olan məlumata görə, Gəncə quberniyasında 2112 nəfər yəhudi yaşayırdı [7, c.196-197] ki, bunların da cəmisi 293 nəfəri [7, c.192-193] Gəncə şəhərinin payına düşürdü və bu göstəriciyə görə Gəncə Bakıdan çox geri qalırdı.

1913-1916-cı ilə aid statistik məlumatların təhlili göstərir ki, Birinci Dünya müharibəsinin başlanmasından sonra keçən müddət ərzində Yelizavetpol quberniyasında davamlı olaraq əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etməkdə idi. Eyni zamanda rus əhalinin sayında müharibə dövründə hərbi səfərbərliklə əlaqədar ciddi azalma olmuşdu. Erməni əhalisinin sayında isə müharibə dövründə hərbi səfərbərliyə baxmayaraq ciddi azalma baş verməmişdi. Bu da Şərqi Anadoludan qaçqın düşən erməni ailələrin quberniyada yerləşdirilməsi hesabına idi. Lakin bu, Yelizavetpol quberniyasında yerli azərbaycanlı əhalinin digər xalqların nümayəndələrindən, eləcə də ermənilərdən dəfələrlə çox olması gerçəyini dəyişmirdi.

## Ədəbiyyat

1. Əliyev Q.Ə. (2019), Qafqazda nəqliyyatın inkişafı. Bakı: Turxan NPB, 400.
2. Əliyeva F.Ə.  (2016), Cənubi Qafqazın azərbaycanlı əhalisi. Bakı: AVROPA nəşriyyatı, 168.
3. Əsədova R.B. (2015), Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı. Bakı: Turxan NPB, 200.

4. Кавказский календарь на 1914 г. (1913), Тифлис: Гл. упр. Кавказ. Наместника, отд. статистический, 110-113.
5. Кавказский календарь на 1915 г. (1914), Тифлис: Гл. упр. Кавказ. Наместника, отд. статистический, 228-233.
6. Кавказский календарь на 1916 г. (1915), Тифлис: Гл. упр. Кавказ. Наместника, отд. статистический, 102-105.
7. Кавказский календарь на 1917 г. (1916), Тифлис: Гл. упр. Кавказ. Наместника, отд. статистический, 190-193.
8. Памятная книга Елисаветпольской губернии на 1914 год. (1914), Под. ред. И.П. Бабенко. Тифлис: Типография Канцелярии Наместника на Кавказе.
9. Елисаветпольские губернские ведомости, 1916 г.